# Xoşbəxt olmağa haqqımız var

(esse)



*Leyla Namazova*

Hər insan dünyaya xüsusi bir missiya ilə gəlir. Hərənin öz bəxti, öz taleyi və alın yazısı olur. Yaşadıqca həmişə əlləri sabaha uzalı olur; nə yaşadığından doymur, nə də yaşamadığını yaşamaq cəhdindən... Olub-olmayanlar, edib-etmədikləri ilə yanaşı insan bir ömür boyu özözünü sorğuya çəkir. Həmişə də sualının cavabını yanlış deyə işarələyir. O məhşur sual budur: "Əsl xoşbəxtlik nədir?"

Xoşbəxt olmağı, rahat yaşamağı arzulamaq hər bir insanın təbii haqqıdır. Amma, insanlar axtardıqları xoşbəxtliyi tapa bilirlərmi? Yolun dolanbacı elə burdadır. Çünki, xoşbəxtlik hərənin düşüncəsində tam başqa bir anlam daşıyır. Əsl xoşbəxtlik hər adama nəsib olmur, dəqiq desəm, insanların fərqli axtarışları heç də eyni yolun sonuna çatmır.

Bəzən bir insan ən xırda bir şey ilə xoşbəxt ola bilir: ovcundakı yağış damlası, mağazada sevdiyi şirniyyatın endirimə düşməsi kimi... Bax, bu məqamda düşüncələr yumaq kimi dolaşır, xoşbəxtliyin ən şirinini yaşadığını zənn edən adam da tərəddüdlə pıçıldayır: "Əsl xoşbəxtlik budurmu?" Yaxud: "Bu deyilsə, əsl xoşbəxtlik necə olmalıdır?"

Bütün xeyir-dualarda və ən xoş arzularda xoşbəxtliyin adı keçər... O qədər demişik, eşitmişik ki: "Xoşbəxt ol! Allah səni xoşbəxt eləsin!" Ən ülvi duyğularımızla qarşımızdakı insana məhz bunu diləyirik; Allahdan ona xoş həyat və bəxt arzu edirik. Bu məqamda unuduruq ki, hər bir insanın xoşbəxtliyi, xoş həyatı az da olsa öz əlindədir.

Elə anlar olur ki, nə hiss etdiyimizin fərqinə varmırıq, "həm kədərlənirəm, həm sevinirəm" təzadı bu bilməməzliyin adına çevrilir. Sanki, xoşbəxtliyimiz də fanidir bu dünya kimi, gəldi-gedərdir bu ömür kimi... Bəlkə, doğrudan, elə bu cürdür? Bəlkə xoşbəxtliyimiz əlçatmaz bir xəzinə, yaxud kəşf edilməmiş bir adadır? Biz onu ömür okeanımızın xəritəsində hansı işarəyə istinadən axtarmalıyıq?

Sualların cavabını birlikdə axtarmağı təklif edirəm. Çünki, xoşbəxtlik çox zaman təkliyi sevmir. Üzümüzü tutduğumuz ünvan isə qoy elə güzgüdəki özümüz olaq... Dolayısı ilə, dünyanın o biri başındakı bəşər övladının da daxilində yaşayan "MƏN" bizim daxilimizdəki "MƏN"lə eyni deyilmi?! O zaman ürəklə deyə bilərik:

-Xoşbəxtliyi başqalarında və başqa yerlərdə axtarma, çünki xoşbəxtlik sənsən! Sən özünsən! Xoşbəxtlik sənin qəlbinin dərinliklərindədir. Bəlkə, o qədər dərindədir ki, sən onu görə bilmirsən. Hərdən buna görə çox üzülürsən, içində özünü yeyirsən ki, bir gün onu tapacaqsan və o zaman hər şey dəyişəcək.

Həqiqətən, xoşbəxtlik hər şeyi dəyişməyə qadirdirmi? Məsələn, nəyi? Hər gün səhər süfrəsinə qoyduğumuz kruasan bizi xoşbəxt edirsə, sonrakı xoşbəxtlik nəyi dəyişəcək? Ən yaxşı ehtimal, kruasanımız bir boy böyüyəcək... Bəzən həqiqət bu qədər sadə olur. Yenə də, güzgüdəki əksimizə dediklərimiz heç zaman bitib-tükənmir. Xoşbəxtliyə dair bütün sualların cavabını onunla birgə axtarmaq üçün yeni müzakirə açmalıyıq. Və...Deməliyik:

-Xoşbəxtliyini tanı!

Heredotun belə bir aforizmi var: "Xoşbəxt insan, heç bir zaman xoşbəxtliyə doymaz". Yəni, xoşbəxtliyi yaşadıqca yaşamaq istəyirsən. Ümumiyyətlə, həyatı oduğu kimi dərk etmək xoşbəxtlikdirsə, onun naminə yaşamalısan. Buna görə xoşbəxt olmağa bir ömür yetmir. Ümidlər, arzular, xoş anlara olan ehtiyac ömürdən ötəyə uzanır həmişə. Onu daşıyan isə yenə də düşüncələrimiz, içimizdəki "MƏN"dir.

Yuxarıda qeyd etdim ki, hər bir insanın xoşbəxtlik ölçüsü başqadır. Elə insan var ki, xoşbəxtliyi var-dövlətdə, vəzifədə, şan-söhrətdə görür. Belə insanlar çox populyar olmaq istəyirlər, tanınmaq onlar üçün şərəfdir. Xoşbəxtliyi dəbdəbəli həyatla bir tərəzidə nizamlamağa çalışanlar istəyir ki, xoş anlarını bacardıqca uzatsınlar və onların qarşısına çıxan şansdan daha səmərəli istifadə etsinlər. Kiçik zaman kəsiyinə bacardıqları qədər çox iş sığdırmağa cəhd edirlər. Onların tək istəyi gördükləri işlərlə gündəmdə qalmaq, tanınmaqdır. Küçədən keçərkən kimsə yaxınlaşıb onu ekrandan tanıdığını deyəndə həmin adamlar xoşbəxt olur. Başqalarının onlara qibtə etməyi ilə xoşbəxt olmaq...Bu, bir az keyfiyyətsiz boya ilə çəkilmiş rəsmə bənzəyir. Ona görə də, "bu günün sabahı da var" deyimini unutmamalı, vardövlətin xərclənərək tükənəcəyini, şan-şöhrətin nə vaxtsa unudulacağını anlamalıdırlar.

Xoşbəxtlik mənəvi anlamdır, onu maddiyata köçürmək faciə ilə nəticələnə bilər. Onu qorumaq lazımdır, yoxsa sonra gec olur, gedir və bir daha qayıtmır.

Bəzi insanlar xoşbəxtliyi pulda görür, necə deyirlər, "pul dəlisi" olur. Düşünür ki, əgər pulu varsa, deməli, hamı ona baş əyməlidi, hamı ona: "Bəli!" Baş üstə!"-deməlidir. Hətta, təməlində sevgi, xoşbəxtlik yox, pul olan ailələr də var. Bu cür insanlar pul üçün nə desən eləməyə hazır olur. Amma, həqiqətdə, bu insanlar xoşbəxt deyil, sadəcə, pul aşiqləridir. Xoşbəxtlik anlayışını dərk etməyəcək qədər cahil olan bu insanlar həyatı da sevərək yaşaya bilmirlər. Ona görə də həyat onlar üçün ucuzlaşır... Böyük anlamların adiləşdiyi heç bir yerdə xoşbəxtlik iz qoymur.

Sevib-sevilməyi xoşbəxtlik sayanlar isə... Onların ürəyində sevgi yaşayır. Sevgi ilə döyünən qəlbin arzuları da ülvi olur. Bəşər övladı üçün xoşbəxtlik və sevgi Tanrı ərməğanıdır. Təbii, əgər ikisi bir ömürü rəngləyirsə... Bəzən demək gəlir içimdən: "Heyf o insanlara ki, sevgini anlamırlar...Heyf o insanlara ki, xoşbəxtlik diyarına gedən yolun bələdçisi kimi sevgini seçmirlər".

"Mən sevirəm!", "Mən xoşbəxtəm!" -deyə bilən o qədər az adam var ki... Amma, aşiqlər xoşbəxtliyin ənginliyində yaşayırlar. Onların simalarından gülüş əksik olmur, sevinclərini sevgilərində tapırlar. Dillərindən "sevirəm" sözü düşmür, qəlblərində sevgi hissi solmur. Bax, budur əsl xoşbəxtlik!

Elə ailələr var ki, sırf rəngarəng xəyalların arxasınca gediblər deyə evləniblər. Amma, onların bu xəyallarında boz rəngə bir damcı da yer ayrılmayıb. Sonuncu məqsəd kimi ərə getməyi düşünənlər ağ gəlinliyi geyən gün xoşbəxt olur, sonrasında isə həyatlarında tez-tez boy göstərən boz rəngi tanımaq istəmirlər. Halbuki, ailə xoşbəxtliyi bozu tanımaqdan, onu məğlub etmək naminə başqa rəngləri qorumaqdan asılıdır.

Xoşbəxtliyi övladında və onun gələcəyi uğrunda çarpışmaqda görənlər də az deyil. Bu insanlar yalnız övladları üçün yaşayır, onun uğurları ilə sevinir. Öz canını belə ona fəda etməyə hazırdı. Övladının hər sevincində xoşbəxt olmağı bacaranlar həyatla ayaqlaşa bilirlər.

Uzun ömrü və can sağlığını xoşbəxtlik sananlar da mövcuddur. Bu insanlar düşünür ki, əgər yaşayırsa, canı sağlamdırsa, o, çox xoşbəxtdir. Hər gün Allaha şükür edir, əsl xoşbəxtliyini mənəvi rahatlıqda, can sağlığı ilə yaşamaqda tapır.

Zənnimcə, şükür etməyi bilmək də xoşbəxtlik tablosundakı bir çizgidir. Sağlam və hər günə yeni ümidlərlə başlayaraq yaşamağın sirri bir də şükür etməyi bilməkdədir. Əlində olanlarla mənəvi rahatlıq tapa bilməyən insanın həyatı daim gərginlik və narahatlıqla keçir. Belə bir həyatda xoşbəxtliyin illüziyasına da yer olmur. Bəzən sahib olduğumuz heç nəyin bizi xoşbəxt edə bilməyəcəyini düşünürük. Elə həmin gün əlil arabasında olan, yaxud görmə qabiliyyətindən məhrum biri ilə rastlaşırıq. Yenidən xoşbəxtliyə baxış bucağımız dəyişir. Həmin an dərk edirik ki, əlimizə-ayağımız yerində, görə bilirik, eşidirik, günümüzün planını tuturuq, çəmənlikdə bir kəpənəyin ardınca qaça bilirik, bir çiçəyin sarı rəngin möhtəşəmliyini necə sevinərək anlatdığını görürük... Və...Bizim xoşbəxtliyimiz elə bu sahib olduqlarımızdır!

Ən xırda detallarla xoşbəxt olmağı bacaran insanlar haqqında düşünərkən ağlımıza belə bir fikir gəlir: "Zövqə görə xoşbəxtlik". Bu insanlar alış-verişlə, bahalı bir ətirlə, əyləncələrlə, hətta, bir mahnıyla da xoşbəxt olmağı bacarırlar. Ən əsası da, onlar bu cür xoşbəxt olmağa adət ediblər. Sevdikləri işlə məşğul olaraq xoşbəxt olmaq adi həyat tərzinə çevrilən insanın dərin düşünməyinə ehtiyac da qalmır.

Əgər məndən soruşsaydılar ki: "Sənin üçün xoşbəxtlik nədir?", deyərdim:

-Xoşbəxtlik sevib-sevilməkdə, can sağlığında, valideynlərimin varlığında, daima yanımda olmaqlarında, nəsib etdiklərinə görə Allaha şükür etməyi bilməyimdədir.

Bəli, xoşbəxtlik tənliyinin ilk əmsalı sevgidir. Bütün həllər o əmsaldan asılıdır. O sevgi ki, məni yaşadır... O sevgi ki, məni göylərə qaldırır... Mənim içimdəki yaşamaq yanğısını heç vaxt sönməyə qoymur. Bu, möhtəşəm hissdir!

Xalq artisti Zeynəb Xanlarovanın bir mahnısı var: "Dünyanın xoşbəxti mənəm dünyada!" Dinlədikcə elə bilirəm ki, mahnı məndən bəhs edir. İstəyirəm ki, bütün insanlar xoşbəxt olduqları anların dəyərini bilsin, xoşbəxtliyi sevgidə, insanlıqda, ən ülvi duyğularda axtarsın. Tapdıqda isə ona bərk-bərk sarılmaqdan qorxmasınlar. Yoxsa, xoşbəxtlik gəldiyi kimi də gedər və onu tapmaq üçün təkrar yola çıxmaq lazım gələr. Əgər növbəti dəfə xoşbəxtlik axtarışındasınızsa, çalışın, bələdçiniz ürəyinizin içindəki sevgi olsun!